18 fevral 2024-cü il Qanunvericilik Qəbul Sualları

1) Azərbaycan Respublikasının Konstitusiyasına əsasən düzgün bəndi seçin :

A) Sağlamlıq imkanları məhdud olanlar, heç bir istisnasız Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.

B) Qulluq mövqeyindən asılı olmayaraq , heç kəsə güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz

C) 15 yaşına çatmamış uşaqlar xüsusi hallarda işə götürülə bilərlər

D) Azərbaycan Respublikasında olan hər kəs Azərbaycan Respublikasından kənara gedə bilərlər

2) Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Milli Məclis:

1. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təqdimatına əsasən Azərbaycan Respublikası Prezidentinin impiçment qaydasında vəzifədən kənarlaşdırılması ilə bağlı 63 səs çoxluğu ilə qərar qəbul edilir.

Allahverdiyev Məhəmmədəli (0773289964)

2. Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə AR Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır

3. Bələdiyyələrin hesabatlarının dinlənilməsilə bağlı olaraq 63 səs çoxluğu qərar qəbul edilir.

4. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarəti 63 səs çoxluğu ilə qərar qəbul edir.

5. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının hərbi doktrinasının təsdiqi

A) 2,3,5

B) 1,2,5

C) 2,3,4

D) 3,4,5

Allahverdiyev Məhəmmədəli (0773289964)

3) Azərbaycan Respublikasında dövlət dili haqqında qanuna əsasən səhv bəndi müəyyən edin :

A) Xarici ölkələrdə yaşayan azərbaycanlıların Azərbaycan dilində təhsil almalarına, bu dildən sərbəst istifadə etmələrinə köməklik göstərilməsi dövlət dilinin işlənməsi,qorunması və inkişafı sahəsində dövlətin əsas vəzifəsidir.

B) Azərbaycan Respublikasının təşkil etdiyi beynəlxalq səviyyəli rəsmi mərasimlər və tədbirlər Azərbaycan Respublikasının dövlət dilində aparılır

C) Reklam qurğularında yerləşdirilən xarici dildə olan mətn dövlət dilində olan mətnin tutduğu sahədən böyük olmamalıdır.

D) Çoxtərəfli beynəlxalq müqavilələr isə müqavilə bağlayan tərəflərin razılığı ilə müyyən edilən dildə (dillərdə) tərtib olunmalıdır

4) Hesablama Palatasında məsləhətçi vəzifəsində çalışan A adlı şəxs 2023-cü ilin mart ayından etibarən 11 illik qulluq stajına malik olacağı üçün vəzifə maaşının 20%-lik aylıq əlavə haqq hesablanmaqla ödəniləcəyini gözləyir. Lakin maaşı aldıqda aylıq əlavə haqqın 10% hesablandığının görür, bununla bağlı müraciət etdikdə isə mühasib , A-nın 2015-ci ildə fəaliyyətə başladığını , bu səbəbdən 8 illik qulluq

Allahverdiyev Məhəmmədəli (0773289964)

stajına malik olduğunu bildirir. A isə 1987-1990-cı illərdə 3 il partiya orqanlarında çalışdığını və qulluq stajı hesablanarkən nəzərə alınmalı olduğunu deyir. Mühasib qeyd edilənlərlə razılaşmayaraq 3 illik dövrün qulluq stajı hesablanarkən nəzərə alınmadığını qeyd edir. Dövlət qulluğu haqqında qanuna əsasən düzgün bəndi seçin.

A) A haqlıdır,onun partiya orqanlarında çalışdığı dövr qulluq stajı hesablanarkən nəzərə alınmalı və 20% aylıq əlavə haqq hesablanmaıdır.

B) Mühasib qismən haqlıdır, partiya orqanlarında çalışdığı dövr daxil edilməsədə A-ya əlavə haqq hesablanarkən güzəşt edilməlidir.

C) Mühasib haqlıdır, A-nın iddia etdiyi dövr qulluq stajı hesablanarkən nəzərə alınmalı və 10% aylıq əlavə haqq hesablanmalıdır.

D) A qismən haqlıdır, iddia etdiyi dövr nəzərə alınmalı olsada ona 15% əlavə haqq hesablanmalıdır.

5) Azərbaycan Respublikasının Konstitusiyasına əsasən bələdiyyələr, bələdiyyə qulluqçuları ilə birlikdə, bələdiyyə qulluqçularının qanuna zidd hərəkətləri nəticəsində insan hüquq və azadlıqlarına dəymiş zərərə görə və onların

Allahverdiyev Məhəmmədəli (0773289964)

təminatının pozulmasına görə hansı məsuliyyəti daşıyır ?

A) Cinayət

B) İntizam

C) Mülki

D) İnzibati

6) Azərbaycan Respublikasının Konstitusiyasında aşağıda verilənlərdən hansılarla bağlı istisna hallar müəyyən edilmişdir :

1. Lokaut qadağandır

2. Hamı qanun və məhkəmə qarşısında bərabərdir

3. Heç kəsin üzərində tibbi, elmi və başqa təcrübələr aparıla bilməz

4. Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır

5. Tənqidə görə təqib qadağandır

Allahverdiyev Məhəmmədəli (0773289964)

6. Hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola bilər

7) Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Nazirlər Kabineti maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsi ilə bağlı ümumi qaydalar müəyyən etdikdə hansı aktlar qəbul edir ?

A) Qərarlar

B) Əmrlər

C) Sərəncamlar

D) Fərmanlar

8) "Məlumat azadlığı haqqında Qanuna" əsasən məlumatın əldə edilməsi yollarında biri doğru göstərilməyib :

Allahverdiyev Məhəmmədəli (0773289964)

A) Mediada, o cümlədən mətbuatda dövlət senzurasına qanunla nəzərdə tutulmuş hallarda yol verilməsi ilə

B) Dövlət hakimiyyəti orqanlarının və bələdiyyələrin öz fəaliyyətləri və qəbul olunmuş qərarları barədə məlumatlar verilməsi yolu ilə

C) Statistik məlumatlardan, kitabxanaların, arxivlərin və muzeylərin fondlarından ,habelə informasiya sistemlərindən maneəsiz istifadə edilməsi ilə

D) Normativ-hüquqi aktların qanunvericilikdə nəzərdə tutulmuş qaydada əhalinin nəzərinə çatdırılması ilə

9) Azərbaycan Respublikasının Konstitusiyasına əsasən hansı məsələ yalnız refendumla həll oluna bilər ?

A) Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi

B) Seçilməsi qanunvericilik orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi

C) Sülh müqaviləsinin imzalanmasına razılıq verilməsi

Allahverdiyev Məhəmmədəli (0773289964)

D) Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi

10) Dövlət qulluğu haqqında qanuna əsasən dövlət qulluçusu barədə doğru bəndləri müəyyən edin :

1. Dövlət qulluqçusunun şəxsi işinə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalarda nəzərdə tutulmuş sənədlər və materiallar daxil edilir

2. Dövlət qulluqçusunun şəxsi işinin aparılması ilə bağlı tələblərin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar

Allahverdiyev Məhəmmədəli (0773289964)

3. Dövlət qulluğunun ayrı-ayrı növlərində andın status xüsusiyyətləri bələdiyyənin qərarları ilə müəyyən edilir.

4. Dövlət qulluqçusunun şəxsi işinin aparılması qaydaları Dövlət Qulluğunun İdarəetmə Şurası tərəfindən müəyyən olunur

5. Dövlət qulluqçsunun Dövlət qulluğu keçdiyi dövr ərzində yalnız bir şəxsi iş tərtib edilir və dövlət qulluqçusunun andı mətni onun şəxsi işində saxlanılır

11) Dövlət qulluğu haqqında qanuna əsasən düzgün deyil :

A) İnzibati vəzifələrin ikinci təsnifatı üzrə ən yüksük ixtisas dərəcəsi 3-cü dərəcə dövlət müşaviridir

B) İnzibati vəzifələrin yeddinci təsnifatı üzrə ən aşağı ixtisas dərəcəsi kiçik dövlət qulluqçusudur

C) İnzibati vəzifələrin ali təsnifatı üzrə ən aşağı ixtisas dərəcəsi 2-ci dərəcə dövlət müşaviridir

Allahverdiyev Məhəmmədəli (0773289964)

D) İnzibati vəzifələrin birinci təsnifatı üzrə ən kiçik ixtisas dərəcəsi 3-cü dərəcə müşaviridir.

12) Dövlət qulluğu haqqında qanuna əsasən dövlət orqanlarının təsnifatı ilə bağlı yanlış olanı müəyyən edin :

A) Dövlət orqanları kateqoriyaları təsnifləşdirilərkən onların statusu,iyerarxiyası və yurisdiksiyası nəzərə alınır

B) Həm NMR Ali Məcisi , həmdə NMR Ali Məhkəməsi 1-ci kateqoriya dövlət orqanıdır

C) Həm Məhkəmə-Hüquq Şurasının aparatı , həmdə Hesablama Palatası 1-ci kateqoriya dövlət orqanıdır

D) İnzibati məhkəmələr 3-cü , rayon (şəhər) məhkəmələri isə 4-cü kateqoriya dövlət orqanlarıdır

13) Konstitusiyaya əsasən uşaqları hansı fəaliyyətə cəlb etmək qadağandır :

Allahverdiyev Məhəmmədəli (0773289964)

1. ***Həyatına təhlükə törədən fəaliyyətə***
2. ***Valideyn razılığı olmadan icbari təhsilə***
3. ***Mənəviyyatında təhlükə törədən fəaliyyətə***
4. ***İdman yarışlarına***
5. ***Uşaqları sağlamlığına təhlükə törədən fəaliyyətə***

14) Konstitusiyaya əsasən hakim cinayət törətdikdə Prezident kimin rəyi əsasında hansı orqanın qarşısında təşəbbüs irəli sürür ?

Cavab : Ali Məhkəmənin rəyi əsasında Milli məclisin qarşısında

15) Etik davranış qaydaları haqqında qanuna əsasən hansı fikir yanlışdır?

Allahverdiyev Məhəmmədəli (0773289964)

Cavab : Mötəbərlik prezumpsiyası etik davranış qaydasıdır

16) Dövlət qulluğu haqqında qanuna əsasən kimlər rotasiya oluna bilməz ?

Cavab : Müvafiq vəzifədə beş ildən az qulluq keçmiş dövlət qulluqçuları

17) 2-ci kateqoriya------ 4-cü təsnifat

A) Konstitusiya Məhkəməsində Şöbə müdiri

B) Baş Prokurorluqda Şöbə müdiri

C) Ali Məclisdə Şöbə Müdiri

D) Hərbi Prokurorluqda Şöbə müdiri

Allahverdiyev Məhəmmədəli (0773289964)

18) Dövlət qulluğu haqqında Qanuna əsasən hansı ixtisas dərəcəsindən sonra növbəti ixtisas dərəcəsini Prezident verir ?

A) Baş müşavir

B) 3-cü dərəcə dövlət müşaviri

C) 3-cü dərəcə dövlət qulluqçusu

D) Müşavir

19) NMR həll etdiyi məsələni seçin :

1. NMR iqtisadi və sosial proqramların təsdiqi

2. NMR Nazirlər Kabinetina etimad (HƏR İKİSİ Cavabdır)

20) Konstitusiyaya əsasən normativ-hüquqi aktlarla tərəfdar çıxdığımız dövlətlərarası müqavilələr ziddiyyət yoxlanılarkən konstitusiya və refendumla qəbul edilmiş aktlar istisna

Allahverdiyev Məhəmmədəli (0773289964)

olmaqla digərləri ilə ziddiyət təşkil etdikdə nə baş verir ?

A) AR Prezidenti hansının tətbiq edilməsi ilə bağlı qərar qəbul edir

B) Həmin beynəlxalq müqavilələr tətbiq edior

C) Normativ hüquqi aktlar tətbiq edilir

D) AR-nın Ali Məhkəməsi hansının tətbiq edilməsi ilə bağlı qərar qəbul edir

21) Dövlət qulluqçusu istifadəsində olan dövlət əmlakından , maliyyə vəsaitlərindən , rabitə ,kompyuter və digər kommunikasiya sistemlərindən, nəqliyyat vasitələrindən və digər maddi-texniki təchizat avadanlıqlarından necə istifadə etməlidir ?

Cavab : qənaətlə və səmərəli

22) Etik davranış qaydaları haqqında qanuna əsasən əmr və şifahi tapşırıqların yerinə yetirilməsi ilə bağlı yanlışdır ?

Allahverdiyev Məhəmmədəli (0773289964)

Cavab : Dövlət qulluqçuları birbaşa və ya yuxarı rəhbərinin qanuna uyğun olmayan və səlahiyyətləri daxilində qəbul etdiyi yazılı əmri, sərəncamı və ya verdiyi şifahi tapşırıqları yerinə yetirməyə borcludur .

23) Dövlət orqanlarında dövlət qulluqçusuna dövlət qulluğunda qulluq stajına görə aylıq əlavə haqqın məbləğinin müəyyənləşdirilməsi və ödənilməsi qaydasına əsasən nə zaman həqiqi hərbi xidmət dövrü staj hesablanarkən nəzərə alınır ?

A) müddəti həqiqi hərbi xidmətə çağrılmazdan əvvəl dövlət qulluğu vəzifəsində qulluq etmiş və ehtiyata buraxıldıqdan sonra biləvasitə yenidən dövlət qulluğu vəzifəsinə təyin edilmiş dövlət qulluqçularının müddəti həqiqi hərbi xidmətdə olduqları dövr

B) müddəti həqiqi hərbi xidmətə çağrılmazdan əvvəl dövlət qulluğu vəzifəsində qulluq etmiş və ehtiyata buraxıldıqdan sonra yenidən dövlət qulluğu vəzifəsinə təyin edilmiş dövlət

Allahverdiyev Məhəmmədəli (0773289964)

qulluqçularının müddəti həqiqi hərbi xidmətdə olduqları dövr

24) “Dövlət orqanlarında , dövlət mülkiyyətində olan və paylarının nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimata” əsasən yanlış fikri seçin :

A) Protokol təşkilat rəhbəri və iclas katibi tərəfindən imzalanır və təqvim ili çərçivəsində nömrələnir

B) Geniş protokolda əvvəlcə məruzələrin və çıxışların qısa mətni , sonra isə qərar hissəsi verilir

C) Protokolun mətni giriş hissəsindən və əsas hissədən ibarət olur

D) Stenoqramları aparılan bütün iclaslar imzalanır .

Allahverdiyev Məhəmmədəli (0773289964)

25) Vətəndaşların müraciəti haqqında qanuna əsasən korrupsiya ilə əlaqədar müraciətlərlə bağlı yanlış fikir hansıdır?

Cavab : Korrupsiya ilə bağlı araşdırma " Korrupsiya qarşı mübarizə haqqında Qanunu" ilə müəyyən edilmiş korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraicətlərə baxılması xüsusiyyətlərinə uyğun aparılır

26) 1. Konstitusiya Məhkəməsinə sorğu verə bilir

2.Milli Məclisdə qanunvericilik təşəbbüs hüququ yoxdur

A) AR Ali Məhkəmə

B) NMR Ali Məclis

C) Nazirlər Kabineti

D) AR Baş Prokurorluq

Allahverdiyev Məhəmmədəli (0773289964)

27) Korrupsiyaya qarşı mübarizə haqqında qanuna əsasən düzgün bəndi müəyyən edin :

A) Vergitutma obyekti olan əmlakı barədə qanunvericiliklə müəyyən edilmiş hallarda məlumatı verməkdən imtina edə bilər

B) Mənbəyini, növünü və məbləğini göstərməklə hər il öz gəlirləri barədə qismən və ya natamam məlumat verməsi mülki məsuliyyətə səbəb olur

C) Vəzifəli şəxslərin yaxın qohumları biləvasitə onların tabeliyində vəzifə tuta bilər

D) Vəzifəli şəxs sadə qonaqpərvərlikdən istifadə ilə bağlı qərara gələ bilmədiyi hallarda bu məsələ barədə yuxarı rəhbərin rəyini öyrənməlidir .

28) Azərbaycan Respublikasının Konstitusiyasına əsasən Milli Məclisin razılıq vermədiyi məsələyə aiddir :

A) Sülh bağlanması

B) AR Prezidentinin təqdimatına əsasən AR Silahlı Qüvvələrinin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsi

C) AR Mərkəzi Bank İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi

D) AR Baş Prokurorun vəzifədən azad edilməsi

Allahverdiyev Məhəmmədəli (0773289964)

29) “Dövlət orqanlarında , dövlət mülkiyyətində olan və paylarının nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimata “ əsasən düzgün bəndi müəyyən edin :

1. Surətin birinci vərəqinin yuxarı sol küncündü “ Surət” qeydi yazılır

2. Razılaşdırılma qrifi sənədin titul vərəqinin yuxarı sağ küncündə yerləşdirilməlidir

3. Surətlərin təsdiq edilməsi üçün sənədin “ İmza” rekvizitindən aşağıda sol sahədə “Düzdür” təsdiqləyici imza əlavə edilir, surəti təsdiqləmiş şəxsin vəzifəsi , onun şəxsi imzası , adı və soyadı təsdiq edilmə tarixi göstərilir və möhür vurulur

4. İki və ya daha artıq təşkilat adından hazırlanan sənədlər blanksız tərtib edilir. Həmin sənədlər təşkilat rəhbərinin imzası və təşkilatın gerbli möhürü ilə təsdiqlənir

5. Sənəd blankda tərtib edilməmişdirsə ona möhür vurulmamalıdır

A) 2,3,4

B) 1,4,5

C) 3,4,5

D) 2,4,5

Allahverdiyev Məhəmmədəli (0773289964)

30) Konstitusiyaya əsasən düzgün bəndi seçin :

A) AR Nazirlər Kabineti – Azərbaycan Respublikası dövlət büdcəsinin icrasını təmin edir

B) AR Prezidenti – AR-ı dövlət büdcəsinin təsdiq edilməsi və onun icrasına nəzarət

C) AR NK – AR-ı dövlət büdcəsinin layihəsini hazırlayıb AR-nın Milli Məclisinə təqdim edir

D) AR Milli Məclisi – AR-ı dövlət büdcəsinin layihəsini hazırlayıb Prezidentə təqdim edir

31) Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında Qanuna əsasən düzgün bəndi müəyyən edin :

1. Azərbaycan Respublikasının Dövlət Himninin hərbi qulluqçular tərəfindən ifa edilməsi, ifa edilən zaman əsgəri salam verilməsi, dinlənilməsi və oxunması qaydaları bu Qanunun tələbləri əsas götürülməklə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qaravul xidmətləri nizamnaməsi" ilə tənzimlənir

Allahverdiyev Məhəmmədəli (0773289964)

2. İdman yarışları zamanı AR-nın Dövlət Himni ifa edilməsi qaydası bu Qanunun tələbləri əsas götürülməklə həmin yarışları təşkil edən idman təşkilatı tərəfindən müəyyən edilir

3. AR-nın Dövlət Himni hər səhər AR-nın televiziya və radio yayımlarının əvvəlində və sonunda bu Qanunun maddəsində müəyyən edilmiş qaydada ifa edilir

4. AR-nın Vətən Müharibəsi iştirakçısının xatirə lövhələrinin açılışı zamanı

5. AR-nın Dövlət Himni ifa edildikdə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər AR-nın Dövlət Himnini ayaq üstə, farağat vəziyyətdə sona qədər dinləməlidirlər

A) 2,5

B) 4,5

C) 1,3

D) 2,4

Qəbul və sınaq testlərinin tez-tez paylaşıldığı wp qrupu

https://chat.whatsapp.com/EZqs9BlKtMDLrMNtmD97Xn

Allahverdiyev Məhəmmədəli (0773289964)

“Dövlət qulluğu haqqında AR Qanunu” başa düşmək üçün aşağıdakı dərs izahlarıma baxa bilərsiniz

https://youtu.be/owwkO0Pf9Dw?si=Qd5_CmUaRFpRZlxH

2023 8 oktyabr Qanunvericilik Qəbul suallarının izahı

https://youtu.be/OppVVxWZF9E?si=9vmoAYHqxFOa1HXD

Cavablar :

1.B
2.A
3.B
4.A
5.C
6.1,3,6
7.A
8.A
9.D

10. 1,2,5

Allahverdiyev Məhəmmədəli (0773289964)

11. A
12. B
13. 1,3,5
14.
15.
16.
17. D
18. A
19.
20. B
21.
22.
23. A
24. D
25.
26. C
27. C
28. C
29. A
30. A
31. A

Allahverdiyev Məhəmmədəli
(0773289964)